# Ümummilli Liderin peşəkarlıq irsi - milli təhlükəsizlik orqanlarının əsas fəaliyyət prinsipi

**Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin məsuliyyət hissi ilə yanaşmalıdır.**

**Heydər ƏLİYEV.**

Azərbaycanı XX yüzilliyin sonlarında düşdüyü xaos və anarxiyadan çıxarıb harmoniya və nizam məcrasına salan, ölkədə ictimai-siyasi sabitliyi təmin edən, XXI yüzillikdə dünyanın sivil dövlətləri ilə yanaşı addımladan dahi siyasətçi, ümummilli lider Heydər Əliyev əmək fəaliyyətinə təhlükəsizlik orqanlarında başladı və leytenantdan generala, əməliyyat müvəkkilindən sədr vəzifəsinə qədər yüksəldi. Heydər Əliyevin Dövlət Təhlükəsizlik Komitəsinə sədr vəzifəsinə təyin olunması ilə hər şeydən əvvəl, Azərbaycan təhlükəsizlik orqanlarının rəhbərliyində səriştəli, təcrübəli və peşəkar əks-kəşfiyyatçı, təhlükəsizlik sistemini, əməliyyat heyətinin qarşısında duran vəzifələri dərindən bilən, ən başlıcası isə xalqının milli-mənəvi irsinə, amallarına sadiq və onun mənafelərinin təminatçısı olan azərbaycanlı dayanırdı. Milli kökə və yaddaşa bağlı bir şəxs kimi o, 1950-ci illərdən başladığı azərbaycanlılaşdırma prosesini daha da inkişaf etdirdi. Məhz ulu öndərin səyləri nəticəsində təhlükəsizlik orqanlarında azərbaycanlı kadrların sayı xeyli artırıldı. Bununla da azərbaycanlılaşmanın əsası qoyuldu.

Azərbaycan xüsusi xidmət orqanlarında milliyyətcə azərbaycanlı olan kadrların yerləşdirilməsi prosesi Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi olanda da davam etdi. Belə ki, 1981-82-ci illərdə, yəni Sov. İKP MK Siyasi Bürosuna üzv seçilərək Moskvaya getmə ərəfəsində belə o, milliləşməyə xüsusi diqqət ayırırdı. Ümummilli lider Azərbaycanın vilayət, şəhər, rayonlarından siyasi və işgüzar keyfiyyətlərinə görə seçilən gənclərin təhlükəsizlik orqanlarında xidmətə göndərülməsi məqsədilə 90-dan artıq azərbaycanlının əməliyyat işinin sirlərinə dərindən yiyələnmək üçün SSRİ DTK-nın ali məktəblərinə göndərilməsi barədə göstəriş verdi.

Ulu öndər sonradan təhlükəsizlik orqanlarının əməkdaşlarının ilə görüşündə bildirirdi ki, sovetlər dönəmində bəlkə də digər sahələrdə milliləşməyə o qədər ehtiyac yox idi, amma dövlət təhlükəsizlik orqanlarında bu çox vacib məsələ idi. İmperiyanın mövcudluğu dövründə milliləşmənin nə qədər çətin olduğunu görən Heydər Əliyev bu xüsusda deyirdi: DTK-da işləyərkən çox şey görmüşdüm. Moskvanın təktərəfli türk millətlərini əsarətdə saxlamaq siyasəti olduğunun ilk gündən şahidi oldum. Daxilən buna qarşı üsyan etsəm də, həyatda buna imkan yox idi. Azərbaycan KP MK-nın birinci katibi işləyərkən Moskvaya qarşı çıxmağım, toqquşmağım mümkün deyildi. Yavaş-yavaş mən də xalqımın, doğma millətimin milli hisslərini, milli şüurunu oyatmağa başladım. Xalqın milli istəklərini, Azərbaycan türklüyünün milli oyanışını, silkələnməyini reallaşdırmaq arzusunda idim. Bu işləri Moskvaya hiss etdirmədən, onu narahat etmədən, onu ayıq və oyaq salmadan görmək istəyirdim.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra təsis edilən Milli Təhlükəsizlik Nazirliyinin milli maraqlara xidmət edən peşəkar qurum kimi formalaşması dövrü də məhz ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə Azərbaycanın rəhbərliyinə qayıdışı, milli təhlükəsizlik orqanları işinin yenidən qurulması və nizamlanmasına göstərdiyi tələbkarlıq, eyni zamanda gündəlik diqqət və qayğısı ilə bilavasitə bağlı idi.

Bu dövrdə ölkədə sabitlik tədricən bərqərar oldu, ayrı-ayrı qanunsuz dəstələrdə olan silah-sursat yığıldı, daxildəki pozucu, separatçı qüvvələrin qanunsuz fəaliyyətlərinin qarşısı alındı, qonşu dövlətlərlə münasibətlər tənzimləndi. Sabitlik əldə edildikdən sonra Heydər Əliyevin təhlükəsizlik orqanları qarşısında yeni reallıqlardan irəli gələn vəzifələr qoyması ilə artıq qabaqlayıcı məlumatlar əsasında cinayətlərin hazırlıq, yaxud başvermə ərəfəsində qarşısının alınmasına nail olundu. Azərbaycan Respublikasında vətəndaş müharibəsi təhlükəsi sovuşduruldu, dövlət çevrilişi cəhdlərinin, xarici xüsusi xidmət orqanlarının pozuculuq fəaliyyətlərinin qarşısı alındı, terror-təxribat törətmək istəyən şəxslər və qruplar ifşa edilərək vaxtında zərərsizləşdirildi. 1993-cü ildən başlayaraq ölkədə dövlət quruculuğunun möhkəmləndirilməsi, sosial-psixoloji tənəzzülün və siyasi gərginliyin tədricən aradan qaldırılması, demokratik-hüquqi dövlət quruculuğu istiqamətində mühüm tədbirlər həyata keçirildi. Dahi dövlət xadimi Heydər Əliyev yalnız dövlətin hərbi, siyasi, iqtisadi, informasiya təhlükəsizliyini təmin etməklə kifayətlənmədi, eyni zamanda tarixi dövlətçilik ənənələrinin bərpası və onun inkişafı işini paralel apardı və beləliklə də, Azərbaycanın bütöv təhlükəsizlik sistemini yaratdı.

Bu gün ümummilli liderin siyasi kursunun layiqli varisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz növbəsində Heydər Əliyevin çoxillik siyasi təcrübəsinin məhsulu olan bu sistemi "Milli təhlükəsizlik haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" qanunlar, "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası" və sair bu kimi vacib hüquqi normativ aktlarla daha da inkişaf etdirdi və zənginləşdirdi.

Ümummilli lider Heydər Əliyev təhlükəsizlik orqanlarının əməkdaşlarının qarşısında mühüm tələblər qoyurdu və bu tələblər ulu öndərin dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində özünə tələblərlə eyniyyət təşkil edirdi. Ulu öndər Heydər Əliyevin xalqın milli maraqlarının, konstitusion hüquqlarının təhlükəsizliyi keşiyində dayanan xüsusi xidmət orqanları əməkdaşlarının qarşısında qoyduğu ən ümdə tövsiyələrdən biri xalqın əsrlərlə yaratdığı və yaşatdığı sərvətlərə sədaqətlə yanaşmaq prinsipidir. Həmişə və hər yerdə məktəbi və müəllimi uca tutan Heydər Əliyev təhlükəsizlik orqanlarının əməkdaşları ilə görüşündə deyirdi: "Sizin məktəbiniz var, bu məktəbin işinə fikir verməlisiniz. Çox ciddi məsələdir. Mən deyə bilərəm ki, keçmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin çox yüksək səviyyəli ali məktəbləri vardı, çox yüksək səviyyəli biliklər verirdilər. Mən özüm biliklərin əksəriyyətini həmin o ali məktəblərdə almışam. Mən Leninqradda oxuyarkən təkcə o ali məktəbin müəllimləri deyil, Leninqrad Universiteti professorlarının əksəriyyəti bizim ali məktəbdə mühazirələr oxuyurdu - həm tarixdən, həm fəlsəfədən, həm ədəbiyyatdan, həm mədəniyyətdən, həm dildən, həm coğrafiyadan, bütün başqa fənlərdən, xüsusən humanitar fənlərdən. Sizin belə məktəbiniz olmalıdır, kadrlar hazırlamalı, işləyən kadrları təkmilləşdirməlisiniz. Amma o məktəblərdə dərs verənlər də çox səviyyəli adamlar olmalıdır".

Ulu öndər qeyd edirdi ki, peşəkarlıq səviyyəsini yüksəltmək hər bir ölkənin təhlükəsizlik orqanı üçün vacib olan amildir: "Təhlükəsizlik işçisi adi işçi deyil, - bu işçi yüksək mədəniyyətli, keyfiyyətli işçi olmalıdır. Elə bir işçi ki, gərək şairlə də, bəstəkarla da, yazıçı ilə də, alimlə də, adi vətəndaşla da danışa bilsin. Əgər belə olmasa, o, ağı qaradan, pisi yaxşıdan, cinayəti səhvdən, səhvi cinayətdən ayıra bilməz".

Ulu öndərin təhlükəsizlik orqanları əməkdaşlarının qarşısında qoyduğu digər mühüm məqam isə milli-mənəvi dəyərləri uca tutmaq və onlara dərindən bələd olmaq idi. Ümummilli lider növbəti vəzifələrdən biri kimi nizam-intizamı önə çəkir və bildirirdi: "Nizam-intizam Milli Təhlükəsizlik Nazirliyinin işinin əsasını təşkil edən amillərdən biridir. Siz hərbi qulluqdasınız. Hərbi qulluq birinci növbədə nizam-intizam üzərində qurulur. Nizam-intizam gündən-günə möhkəmlənməlidir. Milli Təhlükəsizlik Nazirliyində işləyən sıravi adam da, zabit də, rəhbər işçi də bilməlidir ki, nizamnamə, Konstitusiya, Milli Təhlükəsizlik Nazirliyinin əsasnaməsi sizin üçün rəhbər və istiqamətverici sənədlərdir".

Bu tövsiyənin dərindən dərk edilməsi və hər bir əməkdaşa aşılanması fəaliyyətin düzgün təşkili, şəxsi həyat arasında münasibətlərin qurulması, subordinasiya qaydalarına riayət olunması işində vacib amillərdəndir. Xidmət və icra intizamı insanı səfərbər edir, qanunçuluğa, nizamnamə qaydalarına ciddi riayət olunmasına və bunu başqalarından da tələb etməyə çağırır.

Qeyd olunmalıdır ki, ulu öndər Heydər Əliyevin ömür yolu öz xalqına, bölgədə və bütün dünyada sülhə və sabitliyə xidmətin nümunəsidir. Qurub-yaratdığı müstəqil Azərbaycan dövlətinin tərəqqisi yolunda Heydər Əliyevin həyat prinsipləri həmişə ədalət, sülh, əmin-amanlıq və xalqın rifahı, dövlətin qüdrətinin və təhlükəsizliyinin möhkəmləndirilməsi olmuşdur. Bu səbəbdən Heydər Əliyev əzəməti, böyüklüyü, qüdrəti və fədakarlığı xalqımız tərəfindən daim uca tutulur.

Əsası və fəaliyyət prinsipləri ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevin müasir dövrün reallıqlarına uyğun istiqamətləri müəyyənləşdirilmiş milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində Azərbaycanın milli təhlükəsizlik orqanları ön sıralarda gedir, cəmiyyətdə geniş təqdir olunan uğurlar qazanır.

Ümummilli lider Heydər Əliyevin peşəkarlıq irsinə, müstəqillik və dövlətçilik amallarına sonsuz sədaqət, möhtərəm Prezident İlham Əliyevin ətrafında sıx birləşərək Azərbaycanın qüdrətlənməsi naminə bütün qüvvə və imkanları səfərbər etmək, sabitliyin dönməzliyini qoruyub saxlamaq və hərtərəfli təhlükəsizliyə nail olmaq ulu öndərin tövsiyələrini yerinə yetirmək, milli maraqlara xidmət etmək deməkdir.

**Həzi AĞAMMƏDOV.**